UOT 159.9

***Könül Akif qızı Xuda-Zadə***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# MÜƏLLİM HAZIRLIĞINDA RAST GƏLİNƏN PSİXPEDAQOJİ PROBLEMLƏR

***Кенуль Акиф гызы Худа-Заде***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПСИХОПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ ПРИ ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ

***Konul Akif Khuda- Zadeh***
*Azerbaijan State Pedagogical University*

# PSYCHOPEDAGOGICAL PROBLEMS ARISING IN THE PREPARATION OF TEACHERS

**Xülasə.** Təhsilin modernləşdirilməsi, demokratikləşdirilməsi və humanistləşdirilməsi ilə bağlı vəzifələrdə müəllim hazırlığı öncül yerlərdən birini tutmaqla yanaşı, həm də cəmiyyətə yararlı, çevik düşünən, yeni şəraitə adaptasiya qabiliyyəti yüksək olan, geniş dünyagörüşlü, akademik və təşkilati bacarıqlara malik müəllimlərin hazırlanmasını diktə edir. Belə bir nəticəyə gəlirik ki, müəllim hazırlığı ilə bağlı yaradılmış və müasir təhsilə tətbiqi mümkün olan modellərin çox halda emprik əsasları olmadığından onun tətbiqinin hansı faydalar gətirəcəyini əvvəlcədən proqnozlaşdırmaq olmur. Bütün bunlar göstərir ki, müəllim hazırlığı üçün zəruri olan psixopedaqoji şərtlər ödənməli, məhz onun sayəsində ən optimal olan modelin aprobasiyası həyata keçirilməlidir. Bunun üçün müəllim peşəsinə verilən tələblər saf-çürük edilməli, ən optimal olan şərtlər qabardılmalı, eksperimental olaraq yoxlanılmalıdır.
***Açar sözlər:*** *müəllim, tələbə, hazırlıq, psixopedaqoji, problem*

**Резюме.** Подготовка учителей не только занимает одну из лидирующих позиций в модернизации, демократизации и гуманизации образования, но и полезна для общества. Она диктует подготовку учителей, которые являются гибкими, обладают высокой способностью адаптироваться к новым условиям, имеют широкий кругозор. мировоззрение, а также академические и организаторские способности. Сделан вывод о том, что модели, созданные в связи с подготовкой учителей и применимые к современному образованию, часто не имеют эмпирической основы, поэтому невозможно предсказать выгоды от их применения. Все это показывает, что должны быть выполнены необходимые психолого-педагогические условия для подготовки учителей, благодаря которым должна быть апробирована наиболее оптимальная модель. Для этого необходимо уточнить требования к профессии учителя, надуть самые оптимальные условия и проверить экспериментально.
***Ключевые слова:*** *учитель, студент, подготовка, психопедагогика, проблема*

**Summary:** Teacher training not only occupies one of the leading positions in the modernization, democratization and humanization of education, but is also beneficial for society. It dictates the training of teachers who are flexible, have a high ability to adapt to new conditions, and have a broad outlook. worldview, as well as academic and organizational skills. It is concluded that the models created in connection with teacher training and applicable to modern education often lack an empirical basis, so it is impossible to predict the benefits of their application. All this shows that the necessary psychological and pedagogical conditions for the training of teachers must be fulfilled, thanks to which the most optimal model must be tested. To do this, it is necessary to clarify the requirements for the teaching profession, inflate the most optimal conditions and test it experimentally.
***Key words:*** *teacher, student, preparation, psychopedagogy, problem*

Müasir dövrdə müəllim hazırlığı ilə bağlı müxtəlif çətinliklər özünü göstərir. Bu çətinliklər metodoloji bazanın yetərsizliyindən deyil, əsasən müəllim peşəsinə olan münasibətdən, həmçinin müəllim peşəsini seçmiş məzunların bu sahəyə ciddi marağının olmamasından qaynaqlanır. Dünyanın müxtəlif ölkələrində aparılmış tədqiqatlar bu faktların həqiqliyini güzərəan səviyyəsində deyil, empirik şəkildə təsdiq olunmasında özünü göstərir. Qeyd olunduğu kimi tələbələrin müəllim peşəsinə yiyələnməsində özünü göstərən qüsurlu məqamlar müxtəlif ölkələrdə aparılmış tədqiqatlarda özünün təsdiqini tapır. Bu günün müəllimi təkcə məlumat verən deyil. O, hər bir gəncin şəxsiyyətinin formalaşmasına, istedad və bacarığının aşkarlanmasına, ətrafdakılarla ünsiyyətə birbaşa təsir göstərməsinə yumşaq deyilsə, cavabdehdir. Buna görə psixoloji cəhətdən hazırlanmış müəllimlərin məktəblərdə çalışması çox vacibdir.

Məktəbdə psixoloq-mütəxəssislərin nə işləməsindən asılı olmayaraq, müəllim sinifdə tək işləyir. Dərsin uğuru, ümumilikdə, ilk növbədə müəllimin dərsin əlverişli psixoloji mühitini necə yarada biləcəyindən asılıdır. Gələcək müəllimlərin psixoloji hazırlığının dərsin və ya hər hansı digər peşənin əlverişli psixoloji mühiti yaratmaq qabiliyyətlərini artırıb-artırmadığı məsələsi açıq qalır. Qısa şəkildə müzakirə olunan gələcək müəllimlərin psixoloji hazırlıq aspektləri bu hazırlığın vacibliyini bir daha vurğulayır. Daha ətraflı elmi tədqiqat işləri, iş prosesinin təhlili və iş prosesinin yaxşılaşdırılması üçün optimal tövsiyələr tələb olunur [18].

"Pedaqoq olmaq həvəsi olmayan tələbə bu sahədə olan tədqiqatlara az əhəmiyyət verir. Çox vaxt onun öyrənməyinin məqsədi kredit almaq və ya imtahan verməkdir. Bu problemlə əlaqəli tədqiqat işlərini daha mükəmməl şəkildə qiymətləndirərək bir çox insanın müəllim hazırlığı məktəblərinə girərək əvvəldən bu işi görməyə həvəsli olmadığını, pedaqoji baxımdan məqsədəuyğun olmadığını, buna görə psixoloji, pedaqoji fənlərin olmadığı iddia edə bilər. Onlar üçün bu peşə böyük məna kəsb etmir və birbaşa motivasiyaları yoxdur. Belə vəziyyət indiki Litvada, Latviyada, bir sıra digər Avropa ölkələrində çox aydın görünür [17].

Tədqiqatlar göstərir ki, Litvada vəziyyət on ildən çoxdur ki, ən parlaq məktəb məzunları pedaqogika təhsillərini seçmirlər. Bu, bütün akademik cəmiyyət üçün ciddi bir problemdir. Düzgün psixoloji tələbə hazırlığına zəmanət verilməli, daha çox diqqət və real vaxtda özünü təhlil, refleksiya və təlimə həsr etməli, konkret praktik vəziyyətləri təhlil etməyi və qiymətləndirməyi öyrənməlidir.

Əlbəttə, burada demək lazımdır ki, müxtəlif ölkələrdə gələcək müəllim hazırlayan ümumi işlərdən asılı olmayaraq vəziyyət əslində fərqlidir. Məsələn, Yaponiyada pedaqoq diplomu almaq istəyənlərin yeddi nəfərdən biri bunu alır və yalnız üçdə biri işə qəbul olunur [17].

Rusiya Federasiyasında aparılmış bir sıra tədqiqatların, o cümlədən, E.P. İlinin çoxsaylı sorğularının nəticəsi göstərdi ki, ali məktəbə daxil olmuş 30-45% tələbə müəllimlik peşəsinə müsbət yanaşırlar. Təqribən 40% bu və ya digər fənnə marağa görə daxil olur, bilavasitə müəllim peşəsinə maraqları olmur. 13-22% tələbələr nə müəllim fəaliyyətinə, nə də profili olan fənnə müsbət yanaşır, ali məktəbə daxil olmaq motivləri isə ya orduya getməmək (oğlanlarda), ya da (qızlarda) ali təhsilli olmağın prestiji ilə əlaqələndirirlər. Təəssüf ki, bu tendensiya bir neçə onilliklərdir ki, davam edir. Pedaqoji fakültələri bitirən tələbələrin yalnız ¼-i müəllimliyin onların peşəsi olduğunu qeyd edirlər [7, s.145].

Müəllim hazırlığında peşə salahiyyətinin öyrənilməsi göstərir ki, müəllimlik peşəsində üç növ səlahiyyət – peşəkar (müəllimin nəzəri bilikləri), psixopedaqoji (müəllimin öz şagirdlərini tanıması və onlarla şəxsiyyətlərarası münasibət qurma qabiliyyəti) və metodik (müəllimin qabiliyyətinə aiddir)- didaktik məzmun elementlərini səmərəli şəkildə öyrətmək daha çox diqqəti cəlb edir. Fikrimizcə, bu kompitensiyaların vəhdətdə nəzərə alınması müəllim hazırlığının psioxpedaqoji məsələlərinin həllinə yaradımçı ola bilər.

Qeyd olunduğu kimi xarici ölkələrin pedaqoji və psixoloji ədəbiyyatında müəllim hazırlığına geniş tədqiqatlar həsr edilmişdir. Lakin bununla belə həmin ədəbiyyatları təhlil etdikdə müəllim hazırlığının necə aparılmasının mexanizmlərinə bələd olmaq olmur. Bununla bağlı A.M Sidrokin qeyd edir ki, " müəllim hazırlığı üçün etibarlı vəsilə olan bu və ya digər metodun başqalarından üstünlüyünü göstərən geniş miqyaslı tədqiqatlar və empirik faktlar kifayət etmir.

Hətta mütəxəssislər belə müəllim fəaliyyətinin effektivliyini təmin edə biləcək yekdil qənaətə gələ bilməyiblər”. O, yazır, “biz bilirik ki, bir müəllim digərindən hansasa cəhətlərinə görə üstündür və ya effektiv fəaliyyət göstərir. Ancaq bunun niyə belə olduğunu söyləyə bilmirik. Biz deyə bilmərik ki, müəllim peşəsinə yiyələnən tələbələrdən hansı effektiv fəaliyyət göstərən müəllimə, hansı daha faydalı olana çevriləcəkdir. Təəssüflə qeyd etmək lazımdır ki, zəruri ölçü metodunun, testin və ya metodikanın köməyi ilə tələbələrdən kimin daha yaxşı müəllim olacağını proqnozlaşdırmaq mümkün deyil.

L. Darlinq-Hemmond müəllim hazırlığı ilə bağlı beynəlxalq təcrübəni inandırıcı şəkildə ümumiləşdirmişdir. Müəllif daha çox təhsil sahəsində inkişaf etmiş ölkələri seçmiş və müəllim hazırlığı ilə bağlı proqramları nəzərdən keçirmişdir. O, Fillandiya, Sinqapur və Kanadanın əyaləti olan Ontarionun proqramlarını öz tədqiqatına daxil etmişdir. O, müəllim hazırlığında bu ölkələrin nümunəsini ümumiləşdirərək əvvəlcədən gözlənilən və ya proqnozlaşdırılan nəticələrə gəlmişdir. Onun tədqiqatı göstərir ki, müəllim hazırlığında bir neçə element olduqca vacibdir və daha işləkdir:

– sistem yanaşma; diqqətli seçim; tələbələrin fəal hazırlığı; müəllim əməyinin cəlbediciliyi; peşəkar yenidən hazırlanma; müəllimdə liderlik keyfiyyətlərinin inkişafı [16, s. 147-150]. Təbii ki, belə bir meyarlardan istifadə inkişaf etmiş ölkələr üçün çətin olmasa da, inkişaf etməkdə olan ölkələr üçün ciddi maliyyə və hazırlıq işləri tələb edir. Həm də bu müəllim hazırlığının ümumi koordinasiyasının yaradılmasını, müəllim peşəsini seçmiş tələbələrdə peşə və şəxsiyyət profilinin ümumtəhsil məktəblərinin səviyyəsinə görə formalaşdırılmasını tələb edir.

Tələbələrin müəllim peşəsinə hazırlığında diqqəti çəkən tədqiqatlardan və ya istiqamətlərdən biri də problemə struktur yanaşmadır. Bu yanaşmanın tərəfdarlarından olan B.A. Slastenin və b. göstərirlər ki, müəllim hazırlığı ilə bağlı fəaliyyəti müxtəlif səviyyələrdə- sosial, psixoloji və pedaqoji səviyyələrdə analiz etmək olar. Təbii ki, belə yanaşma həqiqətən əsaslı sayıla bilər. Ona görə ki, struktur yanaşma hadisənin daxili, həm də xarici məqamlarını üzə çıxarmağa imkan verir. Müəllim hazırlığında yaradılmış belə professioqrama pedaqoji fəaliyyətin güzgüsünə çevilir. Bəs bu yanaşma da əsas hansı mexanizmlər tədqiq edilir, hansı cəhətlərə üstünlük verilir?

Sruktur yanaşmanın tədqiqatçılarının o cümlədən, B.A. Slasteninin, həmçinin E.A. Qrişinin və b. işlərinin təhlilindən belə qənaətə gəlmək olur ki, bu tədqiqatlarda müəllimin profesioqramasına daha çox diqqət yetirilir.

V.A. Slasteninin fikrincə, profesioqrama pedaqoji təhsil müəssisələrinin vəzifələrinin konkretləşdirilməsinə, müəllim hazırlığı üçün vacib olan keyfiyyətlərin formalaşdırılması işini idarə etməyə, tədris olunan fənlərin sayının dəqiq göstərilməsinə, tədris planlarının dəqiqləşdirliməsinə imkan verir.

Profesioqramın qurulması bir çoxlarının fikrincə, şəxsiyyətin psixoloji tədqiqinə əsaslanmalı, şəxsiyyətin peşə və vacib psixoloji keyfiyyətlərinin nomekturasının yaradılmasına söykənməlidir. Əlbəttə, bu vəzifənin həlli müşahidədən gələn biliklərdən qaynaqlana bilməz. Burada həmin professioqramın yaradılması eksperimental tədqiqatlara və pedaqoji əməyin yaradıcılarının tərcümeyi-halının təhlilinə əsaslanmalıdır [ 15, s. 69].

V.A. Slasteninin apardığı tədqiqatın elmi-nəzəri əhəmiyyəti danılmazdır. Ancaq onun müəllim hazırlığı üçün təqdim etdiyi keyfiyyətlər də nəzəri ümumiləşdirmələrin nəticəsidir və fərqli milli-etnik mühitdə eksperimentlər aparılmamışdır. Hesab edirik ki, tələbələrin müəllim peşəsinə hazırlığı məsələlərində bilavasitə məktəbdə tədqiqatlar aparılmalı, pedaqoji fəaliyyətdə müəllimin çatışmayan cəhətləri və uğurlu müəllimin keyfiyyətləri müqayisə edilməlidir. Məhz bu zaman zəruri olan modelin yaradılması üçün vacib olan nəzəri və empirik faktlar ortada ola bilər.

Respublikamızda da müəllim hazırlığının müxtəlif aspektləri ilə bağlı sanballı tədqiqat işləri həyata keçirilmişdir. Ümumiyyətlə, müəllim hazırlığı ilə bağlı Azərbaycanda aparılmış tədqiqatlarda zəruri olan məqamlar xüsusilə də müəllim şəxsiyyəti, onun formalaşdırılması istiqamətləri, eləcə də müəllimin şəxsiyyət profili diqqət mərkəzinə gətirilmişdir. Bu sahədə aparılmış tədqiqatlar təlim psixologiyası kontekstindən daha qabarıqdır. Bu baxımdan Azər-baycan psixoloqları F. İbrahimbəyov, Ə. Bayramov, Ə. Əlizadə, Ə. Qədirov, M. Həmzəyev və.b təd-

qiqatlarında müəllim peşəsi və şagirdin psixi halları məsələləri önə çəkilir, bu məsələlər qarşılıqlı təsir prosesində nəzərdən keçirir. Bu tədqiqatlarda müəllim hazırlığında müəllimin psixi vəziyyətinin müəyyən edilməsi, onun stressə davamlılıq aspektlərinin öyrənilməsi əsas problem kimi qoyulur.

Azərbaycan psixologiyasının tanınmış simalarından olan professor Ə.Ə. Əlizadə müəllimlərin psixologiya sahəsində hazırlıq səviyyəsinin yüksəldilməsi ilə bağlı ciddi tədqiqatların müəllifidir. Müəllim şəxsiyyətinin şagirdlərin şəxsiyyət kimi formalaşmasında rolunu önə çəkən müəllif özünün sanballı əsərləri və eksperimental tədqiqatları ilə yalnız Azərbaycanda deyil, həm də dünyada tanınmışdır.

Müəllimin pedaqoji, bacarıq, vərdiş və qabiliyyətləri haqqında, təlim prosesində müəllimlə şagirdin qarşılıqlı münasibətlərinin sosial-psixoloji problemləri, müəllim etikasının psixo-pedaqoji məsələləri və s. kimi problemlər M.Ə. Həmzəyevin [12] əsərlərində hərtərəfli şəkildə işıqlandırlmışdır. Pedaqoji prosesdə müəllimin öz psixi vəziyyətini idarə etməsi məsələləri N. Kazımov, müəllim şəxsiyyətinin tərbiyə edilməsinin psixoloji məsələləri haqqında M.S. Nəcəfovun tədqiqatlarını, məqalə və tezislərini qeyd etmək olar.

Gənc müəllimlərin psixoloji fəaliyyəti və qarşılaşdığı çətinlikləri bağlı məsələlər C.Q. Alıyevin [1] tədqiqatlarında geniş aspektdən öz əksini tapmışdır. Onun bu adda olan fəlsəfə doktoru dissertasiyasında gənc müəllimlərin qarşılaşdıqları problemlər qoyulur və həmin problemlərin uğurlu həlli üçün vacib metodlar, yol və vasitələr göstərilir.

Pedaqoji universitetin tələblərinin peşəkar kimi formalaşmasının dinamikasının psixoloji təhlili Z.A. Orucovun tədqiqatında öz əksini tapmışdır. Bu tədqiqatlarda müəllim hazırlığı məsələləri bütünlüklə deyil qismən araşdırılmış, bir çox hallarda isə konkret tədqiqat obyekti olmamışdır.

Müəllim hazırlığı ilə bağlı Respublikamızda sistemli səciyyə daşıyan tədqiqatlara da rast gəlmək olur. Belə tədqiqatlardan biri AMEA-nın müxbir üzvü, professor B.H. Əliyevin [7; 8] müəllim hazırlığına həsr olunmuş tədqiqatıdır. Qeyd etmək lazımdır ki, B. Əliyevin R. Cabbarovla birlikdə yazdıqları "Təhsildə şəxsiyyət problemi" əsərində müəllim hazırlığı ilə bağlı bir çox məsələlər öz əksini tapmışdır. Həmçinin 2011-ci ildə B. Əliyev, K. Əliyeva, R. Cabbarovun müəllifliyi ilə çap olunmuş "Pedaqoji psixologiya" dərsliyində də müəllim şəxsiyyəti və pedaqoji fəaliyyətdə müəllim hazırlığı məsələləri sistemli təqdim olunmuşdur.

Müəllim hazırlığı ilə bağlı Ə. Baxşəliyevin tədqiqatlarını da qeyd etməmək olmaz. Onun "Azərbaycanda psixoloji fikrin inkişaf tarixi" əsərində bu sahədə aparılmış tədqiqatlar sistemləşdirilir. Bununla yanaşı R. Qədirovanın, K. Əliyevanın, E. Şəfiyevanın, R. Əliyevin, H. Əlizadənin, Q. Qəhrəmanovanın və b. bu sahədə ciddi tədqiqat işləri vardır.

Həmçinin A. Xaliqov "Müəllim hazırlığında müasir tələblər və kurikulum" adlı məqaləsində müəllim hazırlığı ilə bağlı bir sıra məqamları diqqət mərkəzinə gətirir. Onun fikirncə, müəllim hazırlığı üç mərhələdə həyata keçirilə bilər:

1. Məktəb metodbirləşmələrinin həyata keçirdikləri qabaqcıl təcrübənin ötürülməsi ilə;

2. Seminar və layihələrdə iştiraketmə yolu ilə;

3. İxtisasartırma və yenidənhazırlanma yolu ilə. [13, s. 83-86].

Müəllim hazırlığı ilə bağlı Azərbaycan pedaqoqlarının geniş tədqiqatları vardır. F. İbrahimov, R. Hüseynzadə müəllimlik peşəsi ilə bağlı, müəllim hazırlığı ilə bağlı mühüm olan uğursuzluqların səbəblərini göstərməyə çalışmışlar. Onların fikrincə, müəllimlik peşəsində uğursuzluğun əsas üç qaynağı vardır:

a) Müəllimlik peşəsində lazımi qabiliyyət və bacarıqlardan məhrum olmaq. Yəni müəllimliyə layiq olmadığı halda bu peşədə çalışmaq. Məsələn, əgər müəllimlik peşəsi tələb edir ki, nitq səlis və aydın olsun, səs telləri normal, əsəbləri sakit olsun və s. Lakin bu peşədə çalışan şəxsin nitqi qüsurludur, dilində pəltəklik vardır, danışarkən uşaqların gülüşünə səbəb olur, səs telləri güclü olmadığından səsi çox zəif və yorucudur. Bir başqa müəllimdə isə əsəbilik var, uşaqların hər hansı şuluğuna dözə bilmir və qışqır-bağır salaraq onları fiziki cəzalandırır. Əlbəttə, belə xüsusiyyətlərlə müəllimlik peşəsində çalışmaq uğursuzluğa səbəb olacaqdır.

b) Müəllimlik peşəsini sevməmək. Bəli, elə müəllimlərə rast gəlmək olur ki, onlar bu pe-

şədə işlədikləri halda onu sevmirlər. Sevgisiz də yaradıcılıqla, rahatlıqla işləmək olmaz və bu uğursuzluğa səbəb olacaqdır. Təcrübə və faktlar göstərmişdir ki, müəllimliyə təsadüfən gələn və ya bu peşəni sevməyənlər də vardır ki, onlar öz pedaqoji fəaliyyətlərində heç uğur qazana bil-mirlər.

c) Müəllimlik peşəsinə yararlı olduğu halda öz üzərində çalışmamaq. Əlbəttə, müəllimlik kimi gözəl bir peşənin qədrini bilməmək, peşə ustalığını təkmilləşdirməmək, daim oxuyub öyrənməmək müəllim peşəsinə uğur gətirməz. Böyük çex pedaqoqu Komenski biliksiz müəllimi yağışsız buluda, susuz bulağa, işıqsız lampaya bənzətmişdir. Yaxşı müəllim həmişə öz sənətinə bağlıdır. O öz peşəsinin əsiridir, daim özünü təkmilləşdirir. Peşəsini sevən müəllim uşaqları da sevir. Daim onların yanında olmağı, hər dəqiqəsini onlarla keçirməyi arzulayır [14, s.162].

Verilmiş informasiyaları ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, tələbələrin müəllim peşəsinə hazırlanması müasir təhsilin ən aktual problemlərindən biri olub, təhsildə innovasiyaların tətbiqi ilə dəyişir və yeni məzmun kəsb edir. Problemin öyrənilməsinə həsr olunmuş tədqiqatların təhlili göstərir ki, müəllim hazırlığı əsasən pedaqoji universitetlər vasitəsilə həyata keçirilir və hər bir təhsil müəssisəsi özünüəməxsus meyarlardan istifadə edərək onu həyata keçirir.

**Problemin elmi yeniliyi**: Müəllim hazırlığında qarşıya çıxan psixopedaqoji problemlər xüsusi prinsiplər nəzərə alınaraq müəyyənləşdirilmiş və tədqiqat istiqamətləri araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti:** Müəllim peşəsinə hazırlığın effektivliyini təmin etmək üçün qarşıya çıxan problemlərin təhlili və müəyyən edilmiş zəruri şərtlərin nəzərə alınması gələcəkdə müəllim hazırlığında daha yüksək nəticələr əldə etməyə imkan verəcəkdir.

**Problemin aktuallığı:** Təhsilin müasir tələblərə uyğunlaşdırılması məsələsinin kökündə müəllim hazırlığı istiqamətində qarşıya çıxan problemləri müəyyən edib onların həll yollarının axtarılması və daima yeniləşən tələblərə uyğun kadrlar yetişdirməkdən ibarətdir.

**Ədəbiyyat:**

1. Alıyev, C.Q. Gənc müəllimlərin psixoloji fəaliyyət prosesində psixoloji təhlili / C.Q. Alıyev. -Bakı: BDU, -1998. -150 s.
2. Bayramov, Ə.S. Psixologiya: Ali məktəblər üçün dərslik. / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. -Bakı: Maarif, -1989. -540 s.
3. Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. -Bakı: Elm və təhsil, -2011. -484 s.
4. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. -Bakı: Nurlan, -2007. -528 s.
5. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə Əlizadə. -Bakı: Ozan, -1998. -368 s.
6. Əlizadə, Ə.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş / Ə.Ə Əlizadə. -Bakı: -2008, -479 s.
7. Əliyev, B.H. Pedaqoji psixologiy: Dərslik. / B.H. Əliyev, K.R. Əliyeva, R.V. Cabbarov. -Bakı: Təhsil, -2011. -256 s.
8. Əliyev, B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi: Monoqrafiya. -Bakı: Təhsil, -134 s.
9. Əliyev, R.İ. Psixologiya tarixi / R.İ. Əliyev. -Bakı: Nurlan, -2006. -384 s.
10. Əliyeva, K.R. Şəxsiyyətin yaradıcı potensialının formalaşmasının psixoloji problemləri. Psixol. elm. dok. alimlik dərəcəsi almaq üçün dis. avtoref**.** -Bakı: 2008, -66 s.
11. Qədirov, Ə.Ə.Yaş psixologiyası / Ə.Ə. Qədirov.-Bakı, Maarif, -2002 -386 s.
12. Həmzəyev, M.Ə. Pedaqoji psixologiya. / M.Ə. Həmzəyev -Bakı: Maarif, -1991. 196 s.
13. Xaliqov A. Müəllim hazırlığında müasir tələblər və kurrikulum // -Bakı: Azərbaycan məktəbi, -2013. 2, -s.83-86.
14. İbrahimov, F. Pedaqogika: 2 cilddə. I cild. / F. İbrahimov, R. Hüseynzadə. -Bakı: Mütərcim, -2012,.
15. Сластенин, В.А. Формирование личности учителя советской школы в процессе профессиональной подготовки / В.А. Сластенин. -Москва: Педагогика, -1990. -300 с
16. Darling-Hammond, L. (2006). Constructing 21st-century teacher education. Journal of Teacher Education, 57(3), 3300-314. doi:10.1177/0022487105285962).

17. Veidas.lt. 2013, September 5, Viešа paslaptis: Kaip išugdyti gerą mokytoją [Public secrets: How to teach a good teacher]. *Veidas.lt*. Retrieved from http://www.veidas.lt/viesa-paslaptis-kaip-isugdyti-gera-mokytoja)

18. Vincentas Lamanauskas. The Importance of Psychological Teachers' Preparation for Educational Activity.Psychological Thought, 2013, Vol. 6(2), doi:10.5964/psyct.v6i2.91, Received: 13 September 2013. Published (VoR): 25 October 2013asd)

E-mail: Konul.akbar.31@gmail.com

**Rəyçilər:** *psixol.ü.elm.dok., prof.* **Ə.T. Baxşəliyev**
*psixol.ü.elm.dok., prof.* **Q.N. Qəhrəmanova**

**Redaksiyaya daxil olub:**14.06.2021